# İrəvan xanları nəslinin nümayəndəsi Azərbaycanda səfərdə olub

İrəvan xanları Hüseynəli xan və Məhəmməd xanın nəslinin nümayəndəsi Əmir Əli Sərdari İrəvani Azərbaycanda səfərdə olub. "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri İradə Rizazadənin dəvəti ilə Bakıya gələn Əmir Əli Sərdari İrəvani ilk öncə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda İnstitutunun direktoru, akademik Yaqub Mahmudov və şöbə müdirləri ilə görüşüb.

Y.Mahmudov İrəvan tarixi ilə bağlı aparılan araşdırmalar, nəşr olunan kitablar barədə qonağa ətraflı məlumat verib və bu kitablardan ona hədiyyə edib.



Prezident Kitabxanasında Əmir Əli Sərdari İrəvani ilə görüş.

20 avqust tarixində Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında İrəvan tarixinin tədqiqatçıları, alimlər ilə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan Kitabxananın direktoru Mayıl Əhmədov İrəvan xanlığının tarixinin Azərbaycan xalqının min illər ərzində yaratdığı maddi və mənəvi mədəniyyət tarixinin ayrılmaz hissəsi olduğunu qeyd edib. Mayıl Əhmədov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, indiki Ermənistan dövlətinin ərazisi tarixi İrəvan xanlığının ərazisidir. Məhz dövlətimizin başçısının tapşırığı ilə Tarix İnstitutunda bir sıra kitab, monoqrafiya və broşürlərin çap olunduğunu bildirib.



İradə İrəvanlı və Nədimə xanım qonağa İrəvan Xanlığının bayrağını hədiyyə etdilər.

Daha sonra çıxış edən "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri İradə Rzazadə bu illər ərzində İrəvan xanlığının təbliği istiqamətində gördüyü işlərdən söz açıb. O, həmçinin Əmir Əli Sərdari İrəvaniyə onun dəvətini qəbul edib Azərbaycana gəldiyinə görə təşəkkürünü bildirib və qonağa İrəvan xanlığının bayrağını hədiyyə edib.



Əmir Əli Sərdari İrəvani Nəsibə İsrafilqızı və Ofelya Bağırbəyova *(Abbasqulu xan İrəvanski ilə Pənah xan Makinskinin nəticəsi)* ilə birlikdə.

Əmir Əli Sərdari İrəvani çıxış edərək, İrəvan xanları olan babaları Hüseynəli xan və Məhəmməd xanın hakimiyyətdə olduqları tarix haqqında geniş məlumat verib. Eyni zamanda Azərbaycanda İrəvan tarixinə bu cür yüksək qiymət verilməsini dəyərləndirib və bundan sonra da İrəvan xanlığının tarixinin araşdırılması, təbliği istiqamətində daha da məsuliyyətli olacağını bildirib.

Daha sonra Əmir Əli Sərdari İrəvani Heydər Əliyev Mərkəzində nümayiş olunan "Tarixin şah əsərləri" sərgisi ilə tanış olub. Heydər Əliyev Mərkəzinin direktoru, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov qonağı salamlayaraq, sərgi barədə ətraflı məlumat verib. O bildirib ki, 5 ildən çox müddət ərzində sərginin Azərbaycana gətirilməsi və burada nümayişi üçün hazırlıqlar görülüb, Heydər Əliyev Fondunun dəstəyilə bir çox eksponatlar restavrasiya edilib. Əmir Əli Sərdari İrəvani bu sərginin təşkilinə görə şəxsən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevaya təşəkkürünü bildirib. O bildirib ki, bu sərgidə olmaqla o, sanki qədim İrəvana qayıdıb: "Mən İrəvanda olsaydım, bu hissləri keçirə bilməzdim. Çünki bilirsiniz, İrəvanda heç bir tarixi abidə qalmayıb, yalnız mənim babam Hüseynəli xanın inşa etdirdiyi Göy məsciddən başqa. Lakin mən burada, Bakıda olmaqla qədim İrəvanı hiss edə, ona toxuna bildim".

Qonaq paytaxtla yanaşı, Şəki və Gəncə şəhərlərinə də səfər edib. Bu şəhərləri görmək istəyinin səbəbi isə babalarının İrəvanda hakimiyyətdə olduqları müddətdə bu xanlıqlar ilə yaxın münasibətdə olması, Xanlıq dövrünə aid olan Şəkidə Xan sarayının mövcudluğu idi.

Şəkidə Xan sarayını və Şəki Xan evini ziyarət edən qonaq çox təsirlənmiş, sanki o dövrə qayıtdığını bildirmişdi: "Azərbaycanda xanlıqlar dövrünü araşdırdıqda yeganə Xan sarayının Şəkidə olduğu və bu sarayın İrəvandakı Xan sarayı ilə çox oxşarlıq təşkil etdiyi barədə məlumat əldə etdim. İndi isə öz gözlərimlə bunun şahidi oldum. Doğrudan, şəkillərə baxsaq, demək olar ki, çox oxşarlığı var, lakin İrəvan Xan sarayı bir neçə dəfə bu saraydan böyükdür. Lakin mən yenə də özümü İrəvandakı Xan sarayındayam kimi hiss edirəm".



Qonaqlar Heydər Əliyev Fondunda.

Qonaq həmçinin Şəki və digər yaxın rayonların tarixi abidələrini, gözəl təbiətini görmək imkanı əldə edib.



"Tarixin şah əsərləri" sərgisində.

Milli Məclisin deputatları Qənirə Paşayeva və Naqif Həmzəyevin dəvəti ilə növbəti səfər Gəncə şəhərinə olub. İlk öncə Cavad xanın qəbrini ziyarət edən Əmir Əli Sərdari İrəvani, daha sonra Gəncə Tarix Muzeyi, Xan bağı və digər tarixi yerləri ziyarət edib. "Gəncəyə gəlmək istəyimin əsas səbəblərindən biri Gəncə xanı Cavad xanın mənim babam Məhəmməd xanla təxmini eyni dövrdə hakimiyyətdə olması və onların çox yaxşı münasibətdə olmasıdır".

Əmir Əli Sərdari İrəvani Azərbaycana gəldiyinə görə çox xoşbəxt olduğunu və qarşılanmaya görə hər kəsə təşəkkürünü bildirib: "Açığı, uzun müddətdir ki, Azərbaycana dəvət alıram, lakin bura gəlməklə bağlı fikirlərim çox qarışıq idi. Bilirsiniz, İrəvanın mənim üçün böyük yeri var. Lakin burada bu məsələyə necə yanaşıldığını bilmirdim. Bu dəfə İradə Rzazadənin dəvətini qəbul edib həyat yoldaşım Sədəf xanım və qızım Nika İrəvani ilə gəldiyimə görə çox sevinirəm. Çünki bir daha şahid oldum ki, azərbaycanlılar öz tarixini sevir və bu istiqamətdə müəyyən işlər görürlər. Mən məsuliyyətimi bir daha hiss etdim və düşünürəm ki, azərbaycanlı dostlarımla birgə bu istiqamətdə hələ görəcək çox işlərimiz var".

Əmir Əli Sərdari İrəvani Azərbaycana səfəri müddətində ona tərcüməçilik etmiş Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının əməkdaşı Nədimə Rəhimliyə xüsusi təşəkkür etdi.

**Nəsibə İSRAFİLQIZI**
*şairə-publisist, AYB-nin və AJB-nin üzvü, "Qızıl Qələm" media mükafatçısı, BMT yanında Ümumdünya Sülh Federasiyasının "Sülh səfiri" mükafatı laureatı.*